**UOT 339.1**

# MÜASİR İQTİSADİ ŞƏRAİTDƏ MİLLİ İNNOVASİYA SİSTEMİNİN ƏSAS XÜSUSİYYƏTLƏRİ

**İlham Alıcı oğlu ASLANZADƏ**

*İqtisad elmləri doktoru, professor*

*Azərbaycan Texniki Universiteti*

*aslanzade@mail.ru*

*Məqalədə müasir şəraitdə milli innovasiya sisteminin əsas xüsusiyyətlərinə baxılmışdır. Milli iqtisadiyyatın səmərəli inkişafı üçün ənənəvi inkişaf modelindən innovasiyalı modelə keçidi təmin etmək vacibdir. Yalnız innovasiyalı inkişaf modeli xammalın ixracında ixtisaslaşdırılmış iqtisadiyyatdan postindustrial iqtisadiyyata, elm tutumlu sahələrin inkişafına keçidi təmin edə bilər və ölkə qloballaşan dünyada özünə daha layiqli yer tuta bilər. Müasir dövrdə yalnız innovasiya tipli inkişafa nail olan ölkələr iqtisadi və hərbi-siyasi təhlükəsizliyini təmin edə bilər.*

***Açar sözlər**: innovasiyalı inkişaf, rəqabətqabiliyyəti, iri sənaye, sahibkarlıq, iqtisadi islahatlar*

Dövlətin sosial-iqtisadi strategiyasının işlənib-hazırlanması və həyata keçirilməsi sosial-iqtisadi, innovasiya-texnoloji, ekoloji və ərazi inkişafın uzunmüddətli meyllərinin qabaqcadan görülməsinə, strateji prioritetlərin seçiminə və onların strateji və indikativ planlar, milli layihə və məqsədli proqramlar vasitəsilə yerinə yetirilməsinə istinad edir.

90-cı illərin bazar islahatları nəticəsində, ölkənin sosial-iqtisadi inkişafının dövlət proqnozlaşdırma və perspektiv planlaşdırma sistemi tamamilə dağıdıldı. Bazar sisteminə uyğunlaşdırılmış yeni sistemin konturları, yuxarıda göstərildiyi kimi, «Regionların sosial-iqtisadi inkişafının dövlət proqramları» ilə müəyyən edilir. Ancaq bu proqramlarda strateji və indikativ planlama barədə müddəa yoxdur. Uzunmüddətli dövlət proqnozuna Elmlər Akademiyası və digər elmi təşkilatlar, praktiki olaraq, cəlb olunmamışlar, iqtisadiyyatın və sosial sferanın ayrı-ayrı sahələrinin perspektiv inkişafına dair sənədlər ümumi strategiya ilə uzlaşdırılmamışlar. Makrosəviyyədə strateji və indikativ planlama

praktiki olaraq mövcud deyil, nəticədə ölkənin sosial-iqtisadi inkişafı strategiyasının hazırlanması və həyata keçirilməsinə cavabdeh olan dövlət orqanlarının məsuliyyəti zəifləyir, ağır səhvlərə yol verilir.

Proqnoz, strateji və indikativ planlama və proqramlaşdırma metodologiyasına yeni yanaşma aşağıdakıları özündə ehtiva edir:

- uzunmüddətli proqnoz əsasında iqtisadiyyatın, sosial sferanın inkişafının, innovasiya-texnoloji inkişafın, ərazilərin inkişafının, xarici iqtisadi əlaqələrin dövri dinamikasının meyllərinin aşkara çıxarılması;
- strateji planlar, milli layihə və proqram, federal məqsədli proqramlar əsasında strateji prioritetlərin seçimi və onların reallaşdırılması;
- dövlətin və biznesin maraqlarını uzlaşdıran indikativ plan və büdcələr, əsaslandırılmış dövlət və korporativ strategiyaları əsasında strateji planın çevik qaydada həyata keçirilməsi; qloballaşma şəraitində milli iqtisadiyyatın sosial istiqamətini, onun innovasiya xarakterini və rəqabətədavamlığını təmin edən strateji plan və proqramların işlənib-hazırlanmasında elmin və təhsilin, dövlət strukturlarının və sahibkarlığın tərəfdaşlığı prinsipi [1,s.255].

Belə yanaşma, dövlətin əsas funksiyalarından olan strateji-innovasiya funksiyasının reallaşdırılmasına imkan verir. Dövlətin vətəndaş cəmiyyəti tərəfindən formalaşdırılması və saxlanması, ilk növbədə, mürəkkəb və dəyişkən sosial demoqrafik, elmi-texnoloji, iqtisadi, ərazi və ekoloji inkişaf şəraitində, milli maraqları ardıcıl şəkildə qoruyaraq, vaxtı yetişmiş innovasiyaları həyata keçirərək və öz iqtisadiyyatının rəqabətədavamlığını artıraraq, dünya iqtisadi konyunkturasının fırtınalı dənizində strateji oriyentirləri düzgün müəyyənləşdirmək zərurətindən irəli gəlir(6). Dünyada postsənaye cəmiyyətinə keçidin, növbəti elmi-texnoloji çevrilişin baş verdiyi, ziddiyyətli qloballaşma proseslərinin sürət aldığı bir zamanda, bu funksiyanın əhəmiyyəti müasir dövrdə ciddi dərəcədə artır [2, s.320].

Bazar iqtisadiyyatının ümumi strateji idarəetmə sisteminin qurulmasının başlıca prinsipləri sırasında aşağıdakıları xüsusilə göstərmək olar (sistem tam həcmdə hələ formalaşmayıb).

- Dövlətin perspektiv strategiyasının hazırlanmasının çıxış nöqtəsində dünya meylləri nəzərə alınmaqla ölkənin sosiodemoqrafik, iqtisadi, innovasiya-texnoloji, ekoloji, ərazi və xarici-iqtisadi inkişafının uzunmüddətli və daha uzun müddətli proqnozlaşdırılması durur.
- Uzunmüddətli proqnoz, perspektiv milli maraqlara, indiki və gələcək nəsillərin ehtiyaclarına daha artıq dərəcədə cavab verən optimal dinamikaya daha yaxın olan trayektoriyanı təmin edən strateji prioritetlərin seçimi üçün təməl kimi çıxış edir
- Seçilmiş prioritetlər, sanballı dövlət dəstəyi alan və ölkənin ali rəhbərliyinin bilavasitə nəzarəti altında olan milli proqram və layihələr

əsasında həyata keçirilir.

- Dövlət strateji tənzimlənməsində növbəti yanaşma– 15-20 illik üfüqə malik strateji planın işlənib-hazırlanmasıdır (dövri olaraq korreksiya edərək uzadılmaqla).
- Strateji plan çərçivəsində strateji prioritetlərin reallaşdırılmasının konkret mexanizmi kimi – ortamüddətli perspektiv üçün hökumətin təsdiqlədiyi federal məqsədli proqramlar çıxış edir.
- Strateji planın və proqramların həyata keçirilməsi və onların qarşılıqlı şəkildə uzlaşdırılması ortamüddətli (3-5 illik) və qısa müddətli (bir illik) indikativ planlar vasitəsi ilə aprılır.
- Strateji və indikativ plan və proqramların icrası ortamüddətli və illik maliyyə planları və büdcələr vasitəsilə aparılır.Uzunmüddətli və ortamüddətli proqnozlar, strateji və indikativ planlar əsaslandırılarkən, nəzərdə tutulan struktur dəyişmələrini tarazlaşdırmağa və onların iqtisadi nəticələrini nəzərə almağa kömək edən makromodellərdən istifadə olunur [3,s.1].

Bütün bu əsaslandırılmış və təcrübədə sınaqdan çıxarılmış alətlər arsenalı uzunmüddətli proqnozun və dövlətin sosial-iqtisadi strategiyasının hazırlanması və reallaşdırılması zamanı istifadə olunmalıdır.

Sosial-iqtisadi inkişafın dövlət tənzimlənməsi sisteminin sadalanmış elementlərinin səmərəli fəaliyyəti üçün, dövlət, regional, bələdiyyə səviyyələrində strateji və taktiki qərarları qəbul edən şəxslərin dərin peşə biliklərinə malik olması gərəkdir. Uzunmüddətli və ortamüddətli proqnozların, strateji və indikativ proqramların hazırlanması metodologiya və texnologiyalarına kadrların yiyələnməsi -dövlət və bələdiyyə idarəçiliyi kadrlarının hazırlanması və təkrar hazırlanması sisteminin başlıca vəzifəsinə çevrilir.

İqtisadiyyatın səmərəli inkişafı üçün ənənəvi inkişaf modelindən innovasiyalı modelə keçidi təmin etmək vacibdir. Yalnız innovasiyalı inkişaf modeli xammalın ixracında ixtisaslaşdırılmış iqtisadiyyatdan postindustrial iqtisadiyyata, elm tutumlu sahələrin inkişafına keçidi təmin edə bilər və ölkə qloballaşan dünyada özünə daha layiqli yer tuta bilər. Müasir dövrdə yalnız innovasiya tipli inkişafa nail olan ölkələr iqtisadi və hərbi-siyasi təhlükəsizliyini təmin edə bilər, əhalisinin həyat səviyyəsinin müasir sivilizasiyaya uyğun olmasına şərait yaradar. Xarici bazarda sərt rəqabətə davam gətirmək üçün innovasiyalı inkişaf ölkənin beynəlxalq münasibətlər subyekti kimi fəaliyyətinin əsas şərtlərindən biridir. İnnovasiyaların tək sayını artırmaq kifayət deyil, onlar bütün iqtisadi proseslərin tərkib hissəsinə çevrilməlidir və informasiya, maliyyə, sosial və d. proseslərdə istifadə olunmalıdırlar. Beləliklə, innovasiyalar tək texnika-texnoloji proseslərdə yox, hətta təşkilatı, idarə etmə, maliyyə, təhsil, ekoloji və digər sahələrdə də tətbiq olunmalıdır. İnnovasiyalı inkişaf elmi tədqiqatların aktivləşdirilməsini tələb edir. İnnovasiya anlayışının yeganə elmi və hüquqi tərifi olma-

dığına görə bəzi hallarda innovasiya fəaliyyətinin meyarlarını müəyyən etmək və bu fəaliyyəti stimullaşdırmaq çətin olur [4,s.1].

Azərbaycan üçün digər postsovet ölkələri kimi təkcə elmi tədqiqatların intensivləşdirilməsi deyil, həm də bu tədqiqatların tətbiqi mexanizminin işlənib hazırlanması, müxtəlif kommersiya layihələrinin həyata keçirilməsi önəmlidir. Postsovet ölkələrinin çoxunda fundamental elmlərin yaxşı inkişaf etməsinə baxmayaraq, onların nəticələri hərbi-kosmik sahə istisna olmaqla iqtisadiyyatda az tətbiq olunurdu. Bu səbəbdən ölkədə istehsal olunan məhsullar inkişaf etmiş ölkələrdə istehsal olunmuş əmtəələrdən geri qalırdılar, istehlakçıların dəyişən tələblərini ödəyə bilmirdilər.

İnnovasiya yönümlü investisiyaların asas istiqamətləri.

İnnovasiyaların işlənib hazırlanması və tətbiqinin əsas məqsədi rəqabət strategiyasında üstünlüyün əldə olunmasıdır.

İnnovasiyalı fəaliyyət nəticəsində innovasiya potensialı yaradılır. İnnovasiya potensialına aşağıda adı çəkilənlər daxildir:

- yeni məhsulun yaradılması, yəni onun istehsalı və ya təkmilləşdirilməsi. Bunun üçün maliyyə, texnoloji, elmi-texniki imkanları, texnoloji prosesin müxtəlif mərhələlərində olması və mütəxəssislərin vacibdir;
- yeni, rəqiblərin məhsulundan keyfiyyətcə üstün, istehlakçıların dəyişən tələblərinə cavab verən məhsulların işlənib hazırlanmasını, istehsalını və satışının təşkil etmək imkanı olmalıdır.

Başqa sözlə, innovasiya potensialı innovasiya prosesinin həyata keçirilməsi üçün tələb olunan amillərin və şəraitin məcmusudur.

Dünya təcrübəsi göstərir ki, investisiyaların innovasiyaya yönəlməsi iqtisadiyyatın sürətli inkişafına, həyat səviyyəsinin artırılmasına gətirir. Eyni zamanda innovasiyalı sahələrin inkişafı bəzi hallarda itkilərlə müşahidə olunur. Məsələn, fundamental elmə qoyulan vəsait geri qaytarılmaya da bilər. Hazırda nanotexnologiyalara qoyulan vəsait gözlənilən səmərə verməyib. Bu səbəbdən innovasiya yönümlü investisiyaların səmərəliyi mütləq nəzərə alınmalıdır. Bundan başqa, investisiyaları innovasiyaya qoyarkən ölkə iqtisadiyyatının xüsusiyyəti də nəzərə alınmalıdır. Məsələn, resurs təminatı məhdud olan ölkələrdə resursa qənaət edən, əmək resursu çox olan ölkədə əməktutumlu, əmək resursu məhdud olan ölkələrdə isə əksinə əməyə qənaət edən sahələrə investisiyalar yönəlməlidir. Bəzi ölkələrdə resurs təminatında regionlar üzrə böyük fərqlərin mövcudluğu ölkə daxilində innovasiya yönümlü investisiyaların istiqamətləndirilməsində fərqlər yaradır. Beləliklə, ölkə iqtisadiyyatının regional, sahə və struktur xüsusiyyətlərinə müvafiq əmək, material, fonda qənaət edən investisiyaları seçmək tələb olunur. Məsələn, əmək resursları ilə yaxşı təmin olunmuş Azərbaycan üçün əmək tutumlu sahələrə investisiya yönəltmək önəmlidirsə, Rusiya üçün əksinə əməyə qənaət edən sahələrin inkişafına üstünlük vermək məqsədə uyğun olardı, Yaponiyada materiallara qənaət edən sahələrin

inkişafı prioritetdirsə, cənub ölkələrində suya qənaət edən sahələrin inkişafı önəmlidir. Qeyd etmək lazımdır ki, müasir dövrə bir çox ölkə üçün enerjiyə qənaət edən sahələrə investisiya yönəltmək zəruridir.

Bəzi hallarda iqtisadi səmərəlilik baxımından bir ölkə daxilində müxtəlif regionlarda investisiyaların müxtəlif növlərini, məsələn, bir regionda əməyə, digərində isə materiala qənaət edən investisiyalar tətbiq etmək tələb olunur [5,s.304].

Ölkə iqtisadiyyatının səmərəliliyini artırmaq üçün investisiyaların innovasiyalı inkişafını təmin etməlidirlər. Qloballaşan iqtisadi münasibətlər şəraitində belə model əsasında səmərəsiz iqtisadi strukturdan rəqabət qabiliyyətini təmin edən yüksək elm tutumlu postindustrial iqtisadi quruluşa keçmək mümkündür. İnnovasiyalı inkişaf tipi ölkənin iqtisadi və hərbisiyasi təhlükəsizliyinin təmin edə bilər. Mikrosəviyyədə innovasiyaların tətbiqi müəssisə üçün kəskin rəqabət şəraitində üstünlük verir, makrosəviyyədə isə ölkənin rəqabət qabiliyyətinin artmasına, beynəlxalq aləmdə onun nüfuzunun möhkəmlənməsinə şərait yaradır.

Müasir dövrdə ənənəvi innovasiyaların sırf iqtisadi səmərəsindən başqa meyarları da önəmlidir. Bura elmi-texniki, sosial-mədəni, praktiki tətbiq və kommersiya meyarı daxildir. Bu meyarlar bazar tərəfindən bu yeniliyin qəbul olunması, müəyyən sosial tələblərə cavab verməsini əks etdirir.

İnnovasiya siyasətinin həyata keçirilməsi ölkənin davamlı inkişafı, istehsal və elmin vəhdəti üçün zəruridir. Dövlət bütövlükdə innovasiya siyasətini bir neçə istiqamətdə reallaşdırır:

- elmin inkişafını, onun maliyyələşdirilməsini, kadr hazırlığını təmin edir;
- biznesin innovasiya aktivliyinin artırılması üçün proqramların işlənib hazırlanmasını təmin edir;
- yeniliklərin sifarişçisi olaraq, dövlət elmin inkişafına kömək edir;
- yeniliklərə ilkin tələbin dəstəklənməsi ilə dövlət gələcəkdə istehlak tələbinin artmasını təmin edir.

Eyni zamanda dövlət innovasiyaları stimullaşdıraraq, fundamental elm və istehsal arasında sıx əlaqə yaradır. Dövlət iqtisadi şəraitə müvafiq olaraq birbaşa və dolayı təsir edə bilər. İqtisadiyyatın enmə mərhələsində dövlət Keynsin nəzəriyyəsinin tövsiyələrindən istifadə edə bilər.

Dövlət innovasiya siyasətinin maliyyə-kredit mexanizmi vasitəsi ilə həyata keçirir.

Respublikada milli iqtisadiyyatın sosial yönümlü inkişaf problemlərinin və eləcə də onun perspektivdə təkmilləşdirilməsi imkanlarının araşdırılması aşağıdakı nəticələrə gəlməyə imkan vermişdir.

Toxunulan məsələlərin elmi araşdırılması sosial sahə problemlərinin həllinin hal-hazırki səviyyəsini müəyyən etməyə və son on beş ildə islahatlar zamanı yerinə yetirilmiş sosial tədbir və proqramların səmərəliliyinin qiymətləndirilməsinə imkan verir. Aparılmış araşdırmalar respublikanın inkişafının hazırki

mərhələsində sosial sahənin tənzimləmə mexanizminin təkmilləşdirilməsinin obyektiv zərurətini təsdiqlədi. Bu mexanizm, özünün tərkib elementlərinin kompleksliliyi və qarşılıqlı əlaqələri ilə seçilməli, keçid mərhələsinin şərtləri nəzərə alınmaqla, yerli və xarici təcrübə üzərində qurulmalıdır. Respublikada aparılmış islahatların səmərəliliyi bazar iqtisadiyyatının qanunlarına sosial infrastrukturun nə dərəcədə sürətlə adaptasiya olunmasından, onların tətbiqi zamanı hansı obyektiv və subyektiv amillərin nəzərə alınmasından asılıdır.

Sosial siyasətin işlənib hazırlanmasında və tətbiq edilməsində daha çətin məsələ – təxirəsalınmaz həllini tələb edən sosial prioritetlər haqqında məsələnin həll edilməsidir. Sosial siyasətin seçilən strategiyası, problemlərin həqiqi miqyasının nəzərə alınması ilə reallaşdırılır.

Müasir dövrdə sosial sahədə innovasiyadan səmərəli istifadə üçün onun daxilində yaranmış problemlərin həllinə dair yeni yanaşmalar hazırlamaq lazımdır.

Praktik planda yanaşmalardan biri kimi, sosial sahədə bütövlükdə islahatlar prosesinin indikasiyası çıxış edə bilər:

- inzibati-amirlik sistemi üçün xarakterik olmayan və bazar şəraitində meydana çıxan yeni sosial proseslərin miqyasının monitorinqi;
- sosial göstəricilər üzrə minimal hədd rəqəmlərinin statistik hesablama metodikalarının işlənib hazırlanması.

Sosial sahədə yaranan problemlərin həllinə dair növbəti yanaşma –müasirləşdirmə – innovasiya strategiyasının tətbiqidir, bu da aşağıdakıları tələb edir:

- Azərbaycan cəmiyyətinin sosial birliyində dövlətin rolunun güclənməsi, bu, mahiyyət etibarı ilə bütün sosial qrupların maraqlarının nəzərə alınması deməkdir;
- dövlət və sosial sahə subyektlərinin məsuliyyət bölgüsü – bu, sosial sahənin islahatı prosesində yükün icra hakimiyyətinin müxtəlif səviyyələri arasında, həmçinin, dövlət və əhali arasında səmərəli bölgüsü deməkdir [6, s.440].

Real iqtisadi-siyasi vəziyyəti, sosial sahədə mühüm struktur islahatlarının həyata keçirilməsi üçün ayrılan maliyyə vəsaitlərinin məhdudluğunu nəzərə alaraq, təkamülləşən prioritetlər sistemi gərəkdir. Bu sistem barədə çoxpilləli inkişaf strategiyası kimi danışmaq olar.

İlk növbədə səhiyyə, təhsil, mədəniyyət, mənzil-kommunal təsərrüfatı, idman və s. sahələrin sərbəst inkişafının səmərəli və sosial cəhətdən qoruyucu mexanizmlərini tapmaq və təməlini qoymaq, müvafiq icra hakimiyyəti orqanlarının yüksək idarəetmə qabiliyyətinə nail olmaq gərəkdir.

Növbəti mərhələdə büdcə vəsaitlərinin xərclənməsinin optimallaşdırılması, büdcədənkənar maliyyə mənbələrinin cəlb edilməsi, mülkiyyət hüquqlarının tənzimlənməsi və s. hesabına sosial sahələrin iqtisadi cəhətdən təmin edilməsinə dair yeni yanaşmaların reallaşdırılması əsasında sosial sahənin inkişafını təmin etmək gərəkdir.

Uzunmüddətli perspektivdə davamlı inkişafa nail olmaq məqsədilə sosial sahənin modernləşdirilməsi təmin edilməlidir.

Sosial sahədə proqram-məqsədli yanaşmaya əsaslanmaq lazımdır. Bu, konkret nəticəyə yönəldilmiş sosial məqsədli dövlət proqramlarının reallaşdırılması ilə bağlı respublikanın İqtisadiyyat Nazirliyinin fəaliyyəti ilə üst-üstə düşür.

Dövlət məqsədli proqramlar dəqiqləşdirilməlidir və artıq təyin olunmuş maliyyələşdirmə çərçivəsində prioritetlər müəyyən edilməlidir. Proqramlar dinamik olmalı və onların reallaşdırılması zamanı səmərəliliyini ilbəil qiymətləndirəndən sonra, konkret nəticələrə nail olma dərəcəsi nəzərə alınmaqla, müvafıq düzəlişlər daxil edilməlidir.

Fəaliyyət məntiqi aşağıdakı əsas parametrləri daxil etməlidir:

- konkret (ölçülən) və nail olunmalı məqsədlərin müəyyən edilməsi;
- məqsədlərə nail olma dərəcəsini qiymətləndirmək imkanı verən meyar və indikatorlar sisteminin işlənib hazırlanması;
- sosial sahə xidmətlərinin minimal standartlarının və xidmət normativlərinin hazırlanması və təsdiq edilməsi;
- vəziyyətin monitorinqinin təşkil edilməsi zamanı məqsədli göstəricilərə nail olma dərəcəsinin qiymətləndirilməsi;
- qoyulmuş məqsədlərə nail olma dərəcəsinə nəzarət.

Dövlətin innovasiya siyasətinin rolu bütün ölkə ərazisində təhsil, sağlamlığın mühafizəsi, mədəniyyət, rekreasiya, mənzil-kommunal təsərrüfatı, nəqliyyat və rabitə sahəsində əsas sosial zəmanətlərin həqiqətən reallaşması üçün real vahid sosial məkanın formalaşmasından irəli gəlir. Başqa sözlə, dövlətin ölkə ərazisində fəaliyyət göstərən sosial standart və normalar toplusu işlənir və onların icra edilməsinə dövlət tərəfindən zəmanət verilir.

Bura həmçinin bütün ölkə əhalisi üçün sosial nemətlərin əlçatanlığını təmin edən hüquqi bazanın yaradılması, məqsədli proqramların işlənib hazırlanması da aiddir. Dövlət səmərəli nəzarət və sosial monitorinq sistemini yaratmalıdır. Bununla belə nəinki tədris və tibb müəssisələri, hətta sağlamlıq, təhsil potensialının vəziyyətinə də nəzarət olunmalıdır. Onların tələbatlara müvafiq olmamasından cəmiyyətin itkilərinə, risk amillərinə nəzarət edilməlidir.

Sosial infrastruktur sahələrində yığılıb qalmış problemlərin həlli bu sferada tənzimlənmə metodologiyasının təkmilləşdirilməsini tələb edir və sosial infrastruktur göstəricilərinin perspektiv qiymətlərinin təyin edilməsi probleminə bilavasitə toxunur [5]. Sosial fəaliyyət təcrübəsində, o cümlədən sosial infrastrukturun tənzimlənməsində, etibarlı proqnozlar olmadığı halda, hər hansı strateji qərarı qəbul etmək mümkün deyildir [6]. Məhz buna görə də bu sahədə dövlət səviyyəsində davamlı olaraq tədbirlərin həyata keçirilməsi zəruridir.

## Ədəbiyyat:

1. Allahverdiyev H.B., Qafarov K.S., Əhmədov Ə.M., Milli iqtisadiyyatın dövlət tənzimlənməsi., Bakı, ADIU-nun nəşriyyatı, 2007, 255 s.
2. Abbasov A.F. Sosial bazar iqtisadiyyatı. Bakı: Elm, 1998, 320 s.
3. «Dövlət əmlakının özəlləşdirilməsi haqqında» Azərbaycan Respublikası Qanunu, 16.05.2000
4. «Əhalinin sağlamlığının qorunması haqqında» Azərbaycan Respublikasının Qanunu, 26.07.1997
5. Əliyev A., Quliyev A. Sosial sferanın iqtisadiyyatının və metodologiyasının əsasları. Bakı: «Adiloğlu» nəşriyyatı, 2005, 304 s.
6. Əliyev A., Şəkərəliyev A. Bazar iqtisadiyyatına keçid: dövlətin iqtisadi siyasəti. Bakı: ADIU-nun nəşriyyatı, 2002, 440 s.

**Ильхам Алыджы оглу Асланзаде**

## Основные особенности инноващионного система в современных экономических условиях

### Резюме

В статье рассмотрены основные особенности национальной инновационной системе. Важно обеспечить переход от традиционная модель к инновационных модел для развития национальной экономики. Развитие наукоемких отраслей и переход страны инновационной системе может обеспечить более достойное место страны в глобализированном мире. В современных условиях в развитиых странах инновационного развития могут обеспечить экономическую и военно-политической-безопасности.

**Ключевые слова:** инновационное развитие, конкурентоспособность, крупная промышленность, предпринимательство, экономические реформы

**İlham Alici Aslanzade**

## The main peculiarities of innovation system under the modern economic condition

### Summary

The article reviewed the main features of the national innovation system. The traditional model of development of innovative models for the development of the national economy, it is important to ensure the transition. Our country specialized in the export of raw materials and it is very important transition to new based innovation economy. In modern times, the only type of innovation development in the countries which can provide economic and military-political security.

**Keywords:** innovative development, competitiveness, industry, entrepreneurship, economic reforms